# DÖVLƏT VƏ HÜQUQ NƏZƏRİYYƏSİ VƏ TARİXİ; HÜQUQ VƏ DÖVLƏT HAQQINDA TƏLİMLƏR TARİXİ

# STATE AND LEGAL THEORY AND ITS HISTORY; LAW AND HSTORY OF TRAINING ON STATE

UOT 321.01; UOT 340.11:1

**NAZİM CƏFƏRLİ**
**Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun elmi işlər üzrə direktor müavini, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müəllimi, Əməkdar müəllim, hüquq elmlər doktoru, professor**

## NƏSİMİ VƏ HÜRUFİLİK FƏLSƏFƏSİ, ONUN SİYASİ-HÜQUQİ İDEYALARIN FORMALAŞMASINDA ROLU

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2019-cu il Nəsimi ili elan edilmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra dünyəvi, hüquqi dövlət quruculuğu sahəsində önəmli addımlar atmış və böyük nailiyyətlər əldə etmişdir. İqtisadi, siyasi, hüquqi, mənəvi-əxlaqi, sosial və digər sahələrdə qısa zaman kəsiyində heyrətamiz irəliləyişə sahib olunmuşdur. Bu sürətli inkişafın səbəblərini axtarmış olsaq qısaca olaraq belə cavab vermək olar: hədəflərin düzgün seçilməsi, düzgün daxili və xarici siyasət, nəhayət, prioritetlərin dəqiq müəyyənləşdirilməsi. Müəyyənləşdirilmiş hədəflərdən biri də Azərbaycan xalqını quruculuq işlərinə səfərbər etmək üçün zəngin tarixi keçmişimiz, mənəvi dəyərlərimiz insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm rol oynayan mütəfəkkirlərimizin irsinin öyrənilməsi və təbliği təşkil edir.

Nəsimin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin vaxta təsadüf edir.

Həmin təşəbbüsdən keçən müddət ərzində Nəsimi ideyalarının öyrənilməsi və təbliği sahəsində xeyli işlər görülmüş, silsilə tədbirlər həyata keçirilmişdir. Nəsiminin əsərləri kütləvi tirajla nəşr olunaraq geniş oxucu kütlələrinə təqdim edilmişdir.

Hürufilik təliminin banisi F.Nəimi olmuşdur. F.Nəimidən sonra bu ideya onun çoxsaylı ardıcılları tərəfindən, xüsusilə də İmadəddin Nəsimi tərəfindən davam etdirilmişdir. Nəsiminin yaşadığı və fəaliyyət göstərdiyi XV-XVI əsrlər Azərbaycan üçün çox mürəkkəb və ziddiyyətli dövr idi, dini ideologiya həyatın bütün sahələrinə nüfuz etmiş, cəmiyyətə təsir edən mühüm amil olmuşdur. «Nəsimini bu əqidəyə (hürufilik əqidəsinə) humanizm idealı bağlamışdır. Zülm və ədalətsizliyin hökm sürdüyü dövrdə sadə insanların alçaldılması, müti kölə hesab edilməsi şəraitində şair insanı ilahiləşdirir» [13, s.115].

«Hürufilik hərəkatı öz ictimai-siyasi mahiyyətinə görə çox həqiqət yönümlü pozitiv ilahi bir ideologiyadır. Onun tərəfdarları bu inancın əsasında zülümkarlığın və qəddarlığın əleyhinə mübarizə aparırdılar. Hürufilik insanı dəyərlərə görə ədalətli yaşayışı və bərabərliyi həm maddi həm də mənəvi cəhətdən ictimai-iqtisadi həyatda ali dərəcədə tələb edirdilər. Onlar həmişə haqq və ədalət yolunda əzabkeş olurdular və ictimai həyatda ədalətin bərqərar olunmasına çalışırdılar» [6, s.57].

«Panteist fəlsəfəyə əsaslanan hürufilik təliminin güddüyü başlıca sosial-siyasi məqsəd dini hökmlərin, fanatizmin ləğvinə nail olmaqdan, dini pərdə altında soyğunçu, hərbi yürüşlər edən xaqanların qəsbkarlıq silahını

sındırmaqdan (ideoloji cəhətdən) xalqın maariflənməsinə, elmin inkişafına müvəffəq olmaqdan və nəhayət, sadə insanları cəhalət məngənəsində xilas etməkdən ibarət idi.

Hürufilik kamilliklə cahilliyi, ədalətlə ədalətsizliyi, humanist dünyəvi qanunlarla mövhumatın qəddar adətlərini və qaydalarını, insani və əxlaqi rəftarla zorakılığı və s. bir-birinə qarşı qoyaraq bəşəri dəyərləri ön plana çəkir, şəxsiyyəti yalnız insani keyfiyyətlərin fövqündə durmalı olan varlıq kim qiymətləndirirdilər. Feodal cəmiyyətini qüsur və nöqsanlarını ifşa edən hürufilər bu quruluşdakı sosial bəlaların kökünün Tanrının insanlara nəsib etdiyi tale qismində deyil, dövlət başçılarının və onların ətrafındakı qoluzorluların insana, xalqa və ümumiyyətlə, insanlığa qarşı qanunazidd, qeyri-əxlaqi əməllərdə görürdülər» [7, s.209].

Hürufilik ideologiyasında mövcud fikir və baxışların tarixi təhlili belə bir cəhəti sübut edir ki, hürufilik inancı və təfəkkürü neçə yüz illər öncədən və çox pərakəndə surətdə alimlər, filosoflar, müəlliflər və ayrı-ayrı xalqlar arasında qeyri-müəyyən halda yayılmış və mövcud olmuşdur. Hürufilik hərəkatının rəhbərləri və ideoloqları birinci dini-etiqadi təşkilat olaraq bu təfəkkürü, pərakəndəlikdən qurtararaq, onu çoxəhatəli və davamlı şəkildə, bir Hürufi-fəlsəfi və dəyərli ideoloji formaya gətirilmiş və onu ümumbəşəri səviyyədə ictimaiyyətə, millətlərə və bəşəriyyətə müqəddəs bir ideologiya kimi təqdim etmişdilər.

Bu ideologiya Hürufilik hərəkatı bir siyasi təşkilat olaraq dövrün mövcud hakimiyyətləri əleyhinə qaldırdığı kəskin siyasi-ictimai mübarizələri altinda öz dərin dini-fəlsəfi ideyalarını yaymışlar.

Bununla da hürufilik bir ideologiya mənbəyi kimi öz rəsalətin çox cəsarətlə və son dərəcə reallıqla həyata keçirilməsi belə bir ideyanı sübut edir ki, burada söhbətin bir inanc mənşəli hərəkatdan və yaxud bir ictimai-fəlsəfi inqilabdan gedir.

Hürufilik fəlsəfəsini, bir ictimai-siyasi fikrin ideoloji mənbəyi kimi təzahürü iki əsas istiqamətdə baş vermişdir. Onların birincisi bu ideoloji hərəkatın Hürufi dini ideyaları altında ictimai-siyasi fikrin ideoloji mənbəyi kimi zühur etmiş və ikincisi, Hürufi-fəlsəfi ideyaların qaldırılması ilə siyasi-hüquqi fikrin ideoloji mənbəyi kimi çıxış etmişdir.

Hürufi-dini etiqadına əsasən, Rəsail-Əxvan-əl-Səfada qeyd olubdur: «İnsan Aləm-i səğirdir və Aləm İnsan kəbirdir» [3, s.3]. Yəni hər hansı isə o, Aləm kəbir də mövcud olan hər şey Aləm-i səğir də iç bətnində mövcuddur. Qurani-Kərimin Əl-Bəqərə surəsinin 30-cu ayəsində yazılmışdır: «Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam» [1, s.6]. Həzrəti Yusifin röyada gördüyü on bir ulduzun, günəş və ayın ona səcdə etməsi. «Atacan: «Mən (yuxuda) on bir ulduz və günəşlə ayı gördüm. Gördüm ki, onlar mənə səcdə (təzim) edirlər». (Yusif surəsi, 4-cü ayə) Mələklərin İnsana səcdəsi.

Hürufi dini ideologiyalarında xilqətin rəmzi sayılan insanın ictimai-fəlsəfi mövqeyi ictimai-siyasi məsuliyyəti təqdirəlayiq və müqəddəsdir.

Hürufilik təlimatının əsas özəyi insan və insaniyyət üzərində qurulubdur. Bu ictimai-etiqadi məxluq yer üzünün varisidir. Hər bir yaranmış insan bəni-Adəmdir. Amma onun həqiqi varisləri və doğru irs olanları ilahi 32 kəlamı öz vücudlarında müşahidə edib və onu dərk edənlərdir. Hürufilik inancına əsasən, bu ayədə zikr olan varislər yəqin ki, Hürufilər olmalıdırlar. Əks təqdirdə hər bir kəs İlahi kəlamın əlamətlərini özündə görə və müşahidə edə bilməyən hər kəs öz dinindən xaric və kafir (cahildir) (Eşqname CD-30288-9) [3, s.100] Fəzlullah Nəimi buyurur: «Hər kəs mömin və rəşid ola bilsə, o yer üzündən irs apara bilər, bu möminliyin əlaməti Müttəqi olmaq (pis əməllərdən çəkinmək) və doğru yol göstərməkdən ibarətdir. Təqva əhli olanlar yer üzünün varisləridir. Alim mötəqiddir ki, Əl-Bəqərə surəsinin birinci və ikinci ayələrinə görə «Bu (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) heç bir şəkk-şübhə olmayan, müttəqilərə (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) doğru yol göstərən kitabdır» [1, s.2]. Təqva əhli o kəslərdi ki, Quranda işlənən baş hərflər vasitəsilə hidayət

olunublar (Cavidanname-sağır CD-211, CD-194, Eşqname CD- 30289) [3, s.101].

XIII-XIV yüzilliklərdə Azərbaycanda dünyəvi elmlərin və mədəniyyətin inkişafı və bununla əlaqədar müsəlman şərqi ölkələri ilə yanaşı bəzi Qərbi Avropa dövlətlərinin də Azərbaycana marağının artması hürufiliyin inkişafının və yaranmasının əsas zəminlərindən biri olmuşdur. Hürufilik mühüm fikir və ideya cərəyanı olmaq etibarı ilə siyasi-hüquqi ideologiya kimi meydana gəlmiş, bir müddət keçdikdən sonra tədricən Azərbaycanın hüdudlarını aşaraq Yaxın və Orta Şərq ölkələrində yayılmaqla geniş vüsət almışdır [7, s.208].

Həqiqətən hər bir insan gözəl və gözəlliyi tam mənasında sevir və ona dərindən rəğbət (əlaqə) bəsləyir. O dünyanı və yaşayışı çox istəyir və onu pərəstiş edir. O, daima hörmət və məhəbbət tələb edir. O, azad və sərbəst yaşamanın tələb etdiyi üçün təzyiq və repressiyalara məruz qalmanın əleyhdarıdır, o, izzət və kəramət sahibidir, yəni, «Azadlığı sevib və ona dəyər verən hər bir insan (mahiyyətən) özü azaddır» [10, s.297].

Hürufilik insan hüquqlarını müdafiə etməklə ictimai-siyasi və hüquqi zərurətlər ucbatından dirçəlib və bu dirçəliş vasitəsi ilə bəşəriyyətin siyasi-hüquqi və iqtisadi-mədəni həyatında böyük rol oynamış və böyük dəyişikliklər yaratmışdır.

Bu ideologiyanın əsas ideyası insanın məqamını və mərtəbəsini xaliqi mütəalin məqam və mərtəbəsinə yüksəltməkdən ibarətdir.

Batini inanclarının təzahürü olaraq ariflərin və sufilərin geyimi və zahiri görünüşlərində bu xüsusda olduqca mübahisəli və dərin mənalı fərqlər vardır. Hürufiliyə görə o insan ki azaddır, o xalqa yaxın və həmişə haqqın və ədalətin tərəfdarıdır, o haqqın və həqiqətin aşiqidir. Sufi sözü ərəbcə «yun» mənasındadır. Sufilərin ağ yundan geydikləri bu geyim adətən onları adi insanlardan çox fərqləndirirdi. Bu yundan istehsal olunmuş geyimi (kəpənək) adlandırırdılar:

*Çəkdi əgnirnə bu sikkeyi mərdan kəpənək*
*Biləsən qildi mənim dərdimə dərman kəpənək*
*Kəpənək giydim ki kimsə gər eyb eyləmsin*
*Çünki halimə mənim qilmadi nöqsan kəpənək.*
*Kəpənək geymişəm əndişədən Azad olubum*
*Üşümək müşkülünü eylədi Asan kəpənək*
*Mərifət əhlinə qildi kəpənək ətləsı xass*
*Nə rəvadir ki giyə cahil-o-Nadan kəpənək*
*Ey Nəsimi yeri gey xirqə ərənlər donudur*
*Giymədi münkür Ani, sandi ki zindan kəpənək.*

Hürufilik humanizm baxımından siyasi-hüquqi mahiyyət daşıyan kəpənək adlı paltar əsrlər boyu zülmün, qeyri-bərabərliyin əleyhinə aparılan mübarizələrin parlaq simvolu olmuşdur. Nəsimi və Nəimi kimi pak insanlar kəpənək geyimləri ilə, nəinki təhqir olunurdular, əksinə onlar bu geyimdə olduqlarına görə fəxr edirdilər.

Hürufilik hərəkatı Əmir Teymurun hakimiyyəti dövründə Azərbaycanda yarandı və yayılmağa başladı. Bunun əsas səbəbi bu idi ki, Azərbaycan və Şirvanda sənətkarlıq, ticarət sürətlə inkişaf etməyə başladı. Bu, şəhərlərin orta təbəqəsinin mənafeyini müdafiə edən hürufilik hərəkatı mövcud hakimiyyətə, o cümlədən Əmir Teymurun oğlu Miranşaha qarşı din pərdəsi altında iqtisadi-siyasi mübarizə aparırdı. Bu isə iri torpaq sahibi olan ruhanilərin və Miranşahın hakimiyyətini laxladırdı.

Hürufilik hərəkatının ideya və inanclarının əsasında mənəvi bərabərliyi əsas tutur, qeyri-bərabərlik əleyhinə çıxışlar edirdi. İnsanın və insaniyyətin əhəmiyyətinin önəmli olması hürufi fəlsəfəsinin əsas ideyası və istiqaməti olmuşdur.

Hürufiliyin qaldırdığı Həqq-İnsan ideyaları XIII yüzillikdə Azərbaycanda yaranmış siyasi-hüquqi fikir cəmiyyətində mövcud problemlərə və ən müxtəlif məsələlərə humanist mövqelərdən yanaşmaq, siyasətdə elmin və zəkanın qüdrətindən istifadə etmək, dövləti ədalətli qanunlar və ədalət prinsipləri əsasında idarə etmək, insanları səadət və xoşbəxtliyə çatdırmaq, azad və faydalı əməyin hökmran olduğu quruluş yaratmaq istəyini əks etdirirdi [7, s.130]. Onlar bu həqiqətin dalıncadılar ki, insanın özünü dərindən tanısınlar. İnsanın şərəf

və kəramətinə hörmət bəsləsinlər. İnsan və insanın haqq və hüquqlarının pozulmasının qarşısını alsınlar. Həmçinin, onlar istibdadın, zülmün və hiylənin yer üzündən birdəfəlik aradan qaldırılması üçün azad fikir və düşüncə ideyasını cəmiyyətdə qaldırırdılar.

Ümumiyyətlə, hürufilik hərəkatı baxımından insanın sosial-ictimai xüsusiyyətləri aşağıdakılardır:

1. Hürufi İnsan müdir və müdəbbirdir;
2. O özü özünə və başqaları ilə təvazökar olmalıdır;
3. O düşüncəlidir;
4. Onun dünyagörüşü sosial-ictimai xarakter daşıyır;
5. O bu günkü siyasət dünyasında gücə malikdir;
6. O hökuməti və hakimiyyəti, təzyiq, repressiya və boğuntu yaratmaq üçün yox, ictimai əlaqələrin tənzimləyicisi və insanı haqq və hüquqlarını qəbul edir. Yəni hakimiyyət mütləq onun istəklərini nəzərə almalıdır;
7. O nə mütəkəbbirdir və nə başqasının təkəbbürünü qəbul edəndir;
8. O özünün sevilməsini başqalarının sevməsilə arayır. O inanır ki, özünü sevməyən başqalarını da sevə bilməz;
9. O çalışır ki, öz yaşadığı zamanı və məkanı, həmçinin olduğu yeri tanısın və yaranmış xilqətdə öz mövqeyini tapsın. «Yəni hər bir kimsənin özünəməxsüs işdə və mövqedə olması və Platonun dilədiyi o tarixi ədalətin ifası» [11, s.236];
10. O bilir və həm də bilik axtarışındadır.

Xülasə, hürufi insanı əhli elm o təhqiqdir. Onun ictimai-siyasi idrakı alidir. Yəni böyük yunan filosofu Sokratı həkimin yazdığına görə: «əslində şər elə həman cəhlidir və elm elə həman fəzilətdir» [9, s.106]. O insan əndişəvərdi və dünya səviyyəli humanizmin bəşərət gətirənidir. Haqq elə o özüdür. Bu məna neçə əsrlərdən sonra böyük alman filosofu F.Hegelin «Hüquq fəlsəfəsi» adlı əsərində də öz əksini tapmışdır. Şəxsiyyət ümumiyyətlə, hüquqa qabilliyi bildirir və anlayışı özlüyündə, abstrakt və ona görə də formal hüququn abstrakt əsasını təşkil edir. Ona görə də hüququn tələbi budur: «Özün şəxs ol və başqalarına də şəxslər kimi hörmət et» [4, s. 100-101].

Hürufiliyin ictimai-siyasi sahədə qaldırdığı humanist ideyaları İnsanın həm ictimai hüquq və vəzifələrin, həm də onun fərdi və insani hüquq və azadlıqlarına öz ideyalarında ön plana çəkir. Yəni «İnsan hər şeyin əsasıdır» [12, s.101].

Nəhayət hürufiliyin əsas ideyalarından vəhdət-vücud fəlsəfəsi ilə qaldırdığı xaliq və məxluqun vəhdətdə olması ideyasıdır. Hürufilik bununla da, bu ikiliklərə mütləq son qoymağa və yaxud insanın müqəddəs timsalında yaratmağa cəhd edir.

*Dilbərin eşgində, ey salik, ikilik pərdədir*
*Mənligitı təf olmayınca aradan getməz hicab [5, s.22].*
*Ruhi-güds oldu Nəsimi, cismini tərli eylədi,*
*Gövhəri – fərd oldu düşdü vəhdətin dəryasına [5, s.53].*

Məlumdur ki, XIII və XIV əsrlər çox məşəqqətli, gərgin və feodal araçəkişmələri və özbaşınalıqları ilə səciyyələnir. Azərbaycanda bu dövrdə köləlik də davam edirdi. Heç bir şeyi və hətta torpaq mülkiyyəti də olmayan yoxsullar, irsi muzdlu qul vəziyyətinə salınıb və istehsal vasitəsinə çevrilirdilər. Qulların sahibləri onları torpaqsız satmaq hüququna malik idilər. Belə bir şəraitdə bütün zəhmətkeşlər və həmçinin əhalinin digər təbəqələri şiddətli istismar və işgəncələrə məruz qalırdılar. Təfəkkür və yaxud bir mütərəqqi ideoloji vasitəsi kimi, mövcud və mürtəce idelogiyalar qrupuna tam sahəli yürüş etdi və öz sarsılmaz mövqeyi və inqilabı mövqeləri ilə İnsanın şərəf və Ləyaqətin ən ali dərəcədə qaldırdığı bu ideyalar əsasında tam bərpa etdi və ən həqiqi dəyərləri rəqəm vurdu.

Belə bir şəraitdə hürufilik hərəkatı öz humanist mahiyyəti əsasında bir mütərəqqi ideoloji vasitə kimi mövcud ideoloji cərəyanlara qarşı mübarizə aparırdı:

*Nəşr oldu, oyan, quruldu Mizan*
*Həşr oldu, İnan, bilindiyəzdan* [8, s.14]
*Vəhdətdən Açıldı Babi Rəhmət*
*Can ilə tən oldu bir həqiqət* [8, s.12]

Vəhdəti-vücud fəlsəfəsi hürufiliyin müqəddiməsidir. Bu fəlsəfəsi hürufilik ideyaları cəhətdən eşq və məhəbbətə qovuşur və bu ilahi eşq mütləq varlığın, mütləq insanın yaranmasına səbəb olur. Məhz hürufilik mütləq insanda onun cövhərini arayır. Onu bir ictimai varlıq kimi ön plana çəkir. Mütləq, kamil insan isə haqqın özü ictimai ədalətin əsasıdır:

*Nədir axı bu millətin günahı?*
*Tutsun görüm, sizi məzlumlar ahı!*
*Göz yaşları hər yerdən Axarsa, məni tüşlar*
*Dəryayə Baxar, Bəllidi, çaylərin Axarı*
[14, s.231].

Hürufi etiqadının əsas istiqamətin vəhdəti vücud fəlsəfəsi təşkil ediri. Bu da həm sosial-ictimai baxımdan və həm də öz siyasi-hüquqi etibarilə mövcud cəmiyyətdə onun bütün sahələrində özünü dəyərli ideoloji mənbə kimi biruzə verib və göstərir. Başqa cahanşumul bir təfəkkür və düşüncədir. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, hürufilik ideyaları başdan-başa Quran ayələrini əks etdirir və Quranda elə bir ayə tapmaq olmaz ki, hürufilik ideyaları ilə səsləşməsin və həmçinin onlardakı mövcud canlıları, varlığın təzahürü bilə və ona İnana-qail ola. Yəqin bu və bunlara tay ziddi-İnsani, ziddi-həyat və yaşayış eyləmləri, Hürufi-fəlsəfi etiqadına (vəhdət vücud fəlsəfəsinə) əsasən yolverilməz və lən (pislənmiş) olunmuş bi felilərdir.

Hürufilik ayinin vəhdət vücud mövzusunda Quran-i Kərimin çoxlu ayələrinə istinadı və inayəti vardir. Onlardan bir neçə ayə ki, çox istinad olur bunlardan ibarətdir. (əl-Hədid/3və4), (Gaf/16), (əl-Bəqərə/115).

**Ədəbiyyat:**


1. Bünyadov Z.M., Məmmədəliyev V.M.. “Quran-i Kərim”, XII-ci nəşr, Bakı, Şərq Qərb Nəşriyyat evi, 2011, 304s.
2. Əbul-Qasim Təhriri. “İctimai-Siyasi Tarix... Teymurdan, Şah Abbasın ölümünə qədər”, “Həbibi” nəşriyyatı, Tehran, 406 s.
3. Fateh Oslo-er, “Hürufilik”, tərcüməçi: O. Vəfaii, Tehran, Mövla Nəşriyyatı, 2012/1391(şəmsi), 550s.
4. Hegel G. V. F.. “Hüquq fəlsəfəsi”, çevirəni-A.İ.Tağıyev, Bakı, Nərgiz Nəşriyyatı, 2007, 376s.
5. İmadəddin Nəsimi. “Seçilmiş əsərləri”, birinci cild, Lider Nəşriyyati, Bakı- 2004, 345s.
6. Kolment Hüart sir. “Məcmüeyi Rəsaili Hürufilik”, Biril Nəşriyyatı, Liden, 1909/1327 (hicri), 125 s.
7. Quliyev Aqşin. “Azərbaycanın siyasi-hüquqi fikrində Dövləti idarə etməyə dair ideyalar”, Bakı: Qanun Nəşriyyatı, 2011, 280 s.
8. Məlikova M., Nəbiyev E . “Xarici Ölkələrin Dövlət və Hüquq Tarixi”, Qanun Nəşriyyatı, Bakı,1997, 416 səh.
9. Müctehidi Dr. K.. “Kantın fəlsəfəsinin tənqidi”, Huma Nəşriyyatı, Tehran, birinci çap, 1984/1363 (şəmsi), 122 səh.
10. Palmer R.R. PDH.. “Demokratik İnqilabin Əsri”, tərcüməçi: Dr. H.Fərhüdi, Kaviyan Nəşriyyatı, Tehran, 1983/1352 (şəmsi), 630s.
11. Platon. “Cimhür (Respublika)”, tərcüməçi: F.Ruhani, Kitab (nəşri və tərcüməsi) Nəşriyyatı,Tehran, ikinci çap, 1964/1342 (şəmsi), 648 s.
12. Popper K.R. “Açıq İctima və onun düşmənləri”, tərcüməçi: İ.Fuladvənd, Tehran, Xarəzmi Nəşriyyatı, ikinci çap, 1998/1377 (şəmsi), 1396 s.
13. Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi, Bakı, 2000, 318 s.
14. Şəhriyar M.H. “Divani Şəhryar”, 30-ci çap, “Nigah” nəşriyyatı, Tehran, 2011/1390 (şəmsi), 321 s.
15. Yəxfrüzani Ə.. İmadəddin Nəsiminin - Divani”, Haşimiyi südmənd


***Açar sözlər:*** *hürufilik, kamilləşmə, cahillik, təfəkkür, insan, izzət və kəramət sahibi, insan azadlığı, mütəkəbbir, vəhdəti-vücud fəls*

**Nazim Jafarli**
*Deputy Director on Science of the Institute on Law and Human Rights of Azerbaijan National Academy of Sciences, Lecturer, Doctor of Juridical Science, Professor, Honored Teacher, Department of Law, Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## NASIMI AND THE PHILOSOPHY OF HURUFISM- ITS ROLE IN THE FORMATION OF POLITICAL AND LEGAL IDEAS

### SUMMARY

The article emphasizes the great importance of studying and promoting the heritage of our thinkers who have played play an important role in the mobilization of the Azerbaijani people in the construction work at the present stage of our development in the way of our rich historical past, our moral values and perfection of people's spiritual-moral upbringing.

By applying Nasimi's role, a prominent Azerbaijani thinker and poet in the formation of his Hurufism philosophy, the Hurufism ideas and the political and legal ideas for the period during which the poet lived, the importance of these ideas for the modern era are analyzed.

A serious impact of Hurufism on the public relations as an idea trend, human dignity, its rights and freedom, fair society and the issues of essence of the Hurufism ideas about the acceptable forms of governance which are the appropriate to the spirit of the people have been investigated in the presented article. It is noticed that Nasimi's ideas play an important role in the formation of the ideology of the era he lived in. Relations of Hurufism with religion and the essence of the struggle against misrepresentation of religion are enlightened.

Finally, it is stated that the Hurufism ideology has a serious impact on the formation of the ideology in the eastern countries.

***Key words:*** *hurufism, perfection, ignorance, mentality, man, possessor of generosity and nobility, superior, human freedom, philosophy of unity*